# Dialoq və əməkdaşlıq üçün açıq platforma

## Bakı Təhlükəsizlik Forumu qlobal təhlükəsizlik arxitekturasında mühüm rol oynayır

**XXI** əsr beynəlxalq münasibətlər sistemində geosiyasi ziddiyyətlərin dərinləşməsi, münaqişələrin genişlənməsi, terrorçu şəbəkələrin fəallaşması və yeni təhdidlərin (kiberhücumlar, texnogen fəlakətlər, ekoloji böhranlar) artması ilə xarakterizə olunur. Bu mürəkkəb şəraitdə təhlükəsizlik orqanları arasında əməkdaşlığın gücləndirilməsi təkcə milli deyil, həm də qlobal sabitliyin əsas şərtinə çevrilib.



Milli Məclisin deputatı Elçin Mirzəbəyli qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanın təşəbbüsü ilə təsis edilən Bakı Təhlükəsizlik Forumu (BTF) da bu baxımdan unikal beynəlxalq platformadır. Bakı Təhlükəsizlik Forumu dövlətlərin xüsusi xidmət və təhlükəsizlik qurumlarını bir araya gətirən, dialoq və əməkdaşlıq üçün açıq platforma kimi qlobal təhlükəsizlik arxitekturasında mühüm rol oynayır. "Onun əhəmiyyətini bir neçə istiqamətdə qiymətləndirmək olar: BTF-nin unikallığı forumun formatının analoji nümunələri ilə müqayisədə daha praktik olmasındadır. Ənənəvi təhlükəsizlik konfranslarından fərqli olaraq, forumda iştirakçıların əsas hissəsini məhz kəşfiyyat və təhlükəsizlik orqanlarının rəhbərləri təşkil edir. Bu isə qərarvermə və operativ koordinasiya baxımından forumun əhəmiyyətini artırır. Tədbirdə bütün qitələrdən nümayəndələrin iştirakı isə forumun universallığını və beynəlxalq legitimliyini təsdiqləyir. Başqa bir önəmli amil forumda multilateral dialoq imkanının yaradılmasıdır. Müxtəlif mövqelərə malik ölkələrin bir masa ətrafında toplaşması etimadın möhkəmlənməsinə xidmət edir", - deyə o əlavə edib.

Deputat daha bir önəmli məqamın forumun mövzularının müasir çağırışlara fokuslanması olduğunu vurğulayıb. Mövzular hər dəfə aktuallığı ilə seçilir: proksi şəbəkələrin fəaliyyəti (2023), nəqliyyat şəbəkələrinin təhlükəsizliyi (2024), humanitar böhranlar və texnogen fəlakətlər (2025). Bu xüsusda Azərbaycan Prezidentinin forum iştirakçılarına ünvanladığı müraciət müasir qlobal təhlükəsizlik gündəliyinin analitik mənzərəsini təqdim edir və Azərbaycanın mövqeyini aydın göstərir.

E.Mirzəbəyli qeyd edib ki, Prezidentin müraciətində yeni təhlükələrə adaptasiyanın önəmi vurğulanır: "Humanitar böhranlar, ekoloji fəlakətlər, texnogen qəzalar, kibertəhdidlər və transmilli cinayətkarlıq çağdaş təhlükəsizlik gündəliyinin ayrılmaz hissəsi kimi diqqətə çatdırılır. Dövlətimizin başçısının müracətində yer alan sülh və əməkdaşlıq mesajı ölkəmizin sülh gündəliyini davamlı və bütün platformalarda təşviq etdiyini göstərir. Prezident İlham Əliyev Azərbaycanın müstəqillikdən bu yana dialoq və tərəfdaşlıq yolu ilə beynəlxalq əməkdaşlığı dəstəklədiyini, xüsusilə də Cənubi Qafqazda sülh təşəbbüslərinin önündə olduğunu diqqətə çatdırır. Cənab Prezidentin müraciətində Vaşinqtonda imzalanmış sənədin regionda uzunmüddətli münaqişəyə son qoyması və yeni əməkdaşlıq imkanları yaratmasının qeyd olunması isə forumun Cənubi Qafqaz kontekstində xüsusi aktuallığını daha da artırır. Azərbaycan Prezidenti müraciətində qeyd edir ki, beynəlxalq təhlükəsizlik problemlərinin həlli məhz xüsusi xidmət orqanlarının sıx əməkdaşlığını tələb edir. Bu, forumun mahiyyətini tam izah edən strateji yanaşmadır".

Deputat deyib ki, Bakı Təhlükəsizlik Forumunun əsas özəlliyi onun həm strukturunda, həm də fəlsəfəsindədir. Münhen Təhlükəsizlik Konfransı və ya Şanxay Əməkdaşlıq Təşkilatı sammitlərindən fərqli olaraq, Bakı Forumunun hədəfi siyasi bəyanatlardan çox real təhlükəsizlik orqanları arasında operativ koordinasiya və informasiya mübadiləsi üzərində qurulub. Forum kəşfiyyat və təhlükəsizlik əməkdaşlığını mərkəzə alaraq beynəlxalq təhlükəsizlik arxitekturasındakı əməli boşluğun doldurulmasına xidmət edir. Bakı Təhlükəsizlik Forumu Azərbaycanı qlobal təhlükəsizlik dialoqunun mühüm geostrateji qovşağı kimi təqdim edir ki, bu da ölkəmizin sülh təşəbbüslərinin beynəlxalq miqyasda legitimləşdirilməsi istiqamətində həyata keçirilən siyasətin tərkib hissəsi kimi qiymətləndirilməlidir. "Bütövlükdə isə Bakı Təhlükəsizlik Forumu Azərbaycanın təşəbbüsü ilə formalaşan və ildən-ilə güclənən beynəlxalq təhlükəsizlik platformasıdır. Prezident İlham Əliyevin müraciətində ifadə olunan fikirlər forumun həm institusionallaşma mərhələsinə qədəm qoyduğunu, həm də beynəlxalq təhlükəsizlik gündəliyinin ən aktual məsələlərinin müzakirə formatına çevrildiyini göstərir. Azərbaycanın təşəbbüsü ilə reallaşan bu platforma qlobal miqyasda həm qarşılıqlı etimadın möhkəmlənməsinə, həm də daha təhlükəsiz gələcəyin qurulmasına real töhfə verir", - deyə deputat bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 24 sentyabr (№204).- S.8.